

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 70 (23.482)

13 may 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda “Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

“Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Mehriban Axundova dövlətimizin başçısına və birinci xanıma müəssisələrin fəaliyyəti barədə məlumat verərək bildirib ki, tibbi maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. Maskalar üçqatdır və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır. Həmçinin birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşüb, ölkə başçısı onları təbrik edib, fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Dövlətimizin başçısı bu günün çox əlamətdar olduğunu bildirərək vurğulayıb ki, həm birinci, həm də bu gün burada fəaliyyətə başlayan ikinci tibbi maska istehsalı müəssisəsi bizim daxili tələbatımızı tam ödəməlidir və qoruyucu kombinezonlar da həmçinin. Sənaye potensialının inkişafı, əlbəttə, imkan verdi ki, biz buna nail olaq.




# Naxçıvanda Süni Mayalanma Mərkəzi yaradılıb

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən tədbirlər sırasında heyvandarlığın inkişafı mühüm yer tutur. Damazlıq işinin düzgün qurulması və cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılır, səmərəli metod kimi süni mayalanma tədbirlərinə geniş yer verilir. Görülən işlər məhsul istehsalının artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Naxçıvanda Süni Mayalanma Mərkəzinin yaradılması heyvandarlığın inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Mayın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Süni Mayalanma Mərkəzində görülən işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev məlumat vermişdir ki, mərkəzdə südlük və ətlik-südlük istiqamətində “Holştein-friz”, “Simmental”, “Qafqaz camışı”, “Balbas”, “Mazex”, “Romanov”, “Hələb”, “Saanen” və yerli cins iri və xırdabuynuzlu törədicilər saxlanılır. Muxtar respublikada 2002-2019-cu illərdə 83 min 610 baş iribuynuzlu malda süni mayalandırma aparılmış, 53 min 584 baş cins buzov alınmışdır. Ana malların süni mayalandırılmasında südlük istiqamətdə “Holştein-friz”, südlük-ətlik istiqamətdə “Şvis”, ətlik istiqamətdə “Aberdin Anqus”, “Limuzin”, “Şarolle”, ətlik-südlük istiqamətdə isə “Simmental” cinsli törədici toxumlarından istifadə olunmuşdur. 2015-2019-cu illərdə alınmış 24 min 485 baş buzova görə sahibkarlara 2 milyon 448 min manat subsidiya ödənilmişdir.

Hazırda muxtar respublikada 23 süni mayalanma məntəqəsi vardır. Həmin məntəqələrin tələbatını tam ödəyən maye azot istehsalı müəssisəsi də fəaliyyət göstərir. Yeni yaradılan mərkəz bu sahədə işləri daha da təkmilləşdirəcək, digər məntəqələrdə həyata keçirilən tədbirlər vahid mərkəzdən idarə olunacaqdır. Bununla da heyvanların cins tərkibinin yaxşılaşdırılması prosesi sürətlənəcək ki, bu da süd və ət istehsalının bir neçə dəfə artmasına imkan verəcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Muxtar respublikada heyvandarlığın inkişafında əsas məsələ onun cins tərkibinin yaxşılaşdırılmasıdır. Ona görə də Süni Mayalanma Mərkəzinin yaradılmasına ehtiyac vardı. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral və 2019-cu il 22 noyabr tarixli Sərəncamlarına əsasən muxtar respublikada Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı vəsait ayrılmış və mərkəzin tikintisinə başlanılmışdır. Muxtar respublikada nə keçmiş Sovetlər Birliyi dövründə, nə də müstəqillik illərində Süni Mayalanma Mərkəzi olmamışdır. Lakin 15 ilə yaxın bir dövrdə muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılmış, süni mayalanma tədbirləri həyata keçirilmişdir. Törədici toxumların və digər avadanlıqların idxal olunmasına baxmayaraq, ötən dövrdə muxtar respublikamızda 83 min başa yaxın mal və camışda süni mayalanma aparılmış, 60 minə yaxın cins buzov alınmışdır. Artıq muxtar respublikada mal-qaranın cins tərkibində ciddi dəyişiklik vardır. Zərurət nəzərə alınaraq muxtar respublikada müasir Süni Mayalanma Mərkəzinin yaradılmasına başlanılmış və işlər əsasən başa çatmışdır.





Ali Məclisin Sədri demişdir: Heyvandarlığın inkişafında ixtisaslı kadr hazırlığı və elmi yanaşma mühüm şərtdir. Çünki hər hansı bir sahədə inkişafa nail olmaq üçün, ilk növbədə, kadr hazırlığı aparılmalıdır. Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası yaradılmış, müvafiq ixtisas üzrə təhsil alan tələbələr ödənişlərdən azad olunmuşlar. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində bu sahə üzrə təhsillərini başa vuran gənclərimiz hazırda muxtar respublikanın Dövlət Baytarlıq Xidmətində fəaliyyətlərini davam etdirirlər. Muxtar respublikada yeni Süni Mayalanma Mərkəzinin yaradılması da bu sahədə işlərin lazımi səviyyədə həyata keçirilməsinə imkan verəcəkdir. Tələbələr ali və orta ixtisas təhsili müəssisələrində bu işi nəzəri, Dövlət Baytarlıq Xidmətində və Süni Mayalanma Mərkəzində isə praktik cəhətdən öyrənəcəklər.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada süni mayalanma işinə ciddi diqqət yetirilməli, Kənd Təsərrüfatı Nazirliyi heyvandarlığın inkişafında rayonlaşma aparmalı, ərazilərə uyğun heyvanların saxlanılması elmi əsaslarla öyrənilməli, sahibkarlar və əhali maarifləndirilməlidir. Heyvandarlığın inkişafında əsas məsələlərdən biri də təbiətə ziyan vurulmamasıdır. Muxtar respublikada təbiətin qorunması birinci məsələdir. Ona görə də aid qurumlar təbiətdən istifadə etməklə yanaşı, həm də onu qorumalı, maldarlığın və heyvandarlığın inkişafında rayonlaşmaya mütləq əməl edilməlidir.

Ali Məclisin Sədri bildirmişdir ki, Süni Mayalanma Mərkəzi muxtar respublikada heyvandarlığın və maldarlığın inkişafına, bu sahədə mütəxəssislərin yetişməsinə böyük təkan verəcəkdir. Mərkəz istifadəyə verildikdən sonra baytar həkimlərin təcrübə və peşəkarlıqları daha da artacaqdır. Əvvəllər süni

Ardı 2-ci səhifədə

mayalanma materiallarının qonşu ölkələrdən gətirilməsində çətinliklər yaranırdı. Lakin bundan sonra azot istehsalı da daxil olmaqla, bütün materiallar yerli istehsal hesabına həyata keçiriləcək. Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin müvafiq ixtisaslarının tələbələri mərkəzdə yaradılan şəraitdən istifadə edərək biliklərini və praktik vərdişlərini artırmalı, elmi işlər götürülməli, bu sahə ilə bağlı xarici ədəbiyyatlar tərcümə olunaraq nəşr edilməlidir.




“Muxtar respublikada süni mayalanma işi ən kiçik detallar nəzərə alınmaqla həyata keçirilir. Bu sahədə fəaliyyətin düzgün təşkili, heyvanların cins tərkibinin yaxşılaşması insanların gəlirlərinin nəzərəçarpacaq dərəcədə artmasına imkan verəcəkdir. Bu gündən etibarən Süni Mayalanma Mərkəzi tədris sahəsi kimi baytarlıq təbabətilə məşğul olanların istifadəsinə verilir”, – deyən Ali Məclisin Sədri yaradılan şəraitdən lazımı səviyyədə istifadə olunacağına və mərkəzin inkişafının təmin ediləcəyinə əminliyini bildirmişdir.

Baxış zamanı bildirilmişdir ki, 2 hektar ərazidə inzibati bina, yataqxana, karantin binaları, baytarlıq klinikası, toxum alma sahəsi, tövlə, yem anbarları, texnika parkı və digər xidməti binalar inşa olunmuşdur. İnzibati binada yeməkxana və iş otaqları, elektron lövhə ilə təmin edilmiş təlim-tədris mərkəzi və arxiv, karantin binasında baytar otağı, anbar və törədicilərin saxlanma yeri, baytarlıq klinikasında heyvan saxlama yeri və müayinə otağı vardır. Toxum alma sahəsində laboratoriya yaradılmışdır. Burada ən müasir avadanlıqlar quraşdırılacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

*“İxrac ili” – 2020*

# SİRAB® – Naxçıvanın müalicəvi brendi

## *və ya 70 illik istehsal tarixi*

***Doğma diyarımızdakı əlverişli coğrafi mühit, bol təbii sərvətlər hələ Neolit dövründən insanların bu ərazidə məskunlaşmasına, öz maddi və mənəvi ehtiyaclarını yerli xammalla təmin etməsinə səbəb olmuşdur. Muxtar respublika ərazisində olan təbii sərvətlərdən biri də onun termal və mineral su yataqlarıdır. Spesifik geoloji-tektonik quruluş burada müxtəlif kimyəvi tərkibli, fiziki xüsusiyyətli, temperatur və debitli mineral, eləcə də termal suların əmələ gəlməsinə şərait yaratmışdır. Ərazidə yaşayan insanlar min illərdir ki, bu sulardan istifadə etmiş, onların müxtəlif xəstəliklərin müalicəsində əhəmiyyətini təyin edərək müalicə üsullarını empirik yolla nəsildən-nəslə ötürmüşlər. Müasir dövrdə də dəri xəstəliklərinin müalicəsində bulaqlardan təbii halda çıxan çoxçeşidli sulardan istifadə olunur. Bu cür müalicəvi süfrə sularından biri də muxtar respublikamızdan və ölkəmizdən kənarda şöhrət tapan, adıyla və dadıyla seçilən “Sirab” mineral suyudur.***






Sirab kəndi ərazisində olan bəzi toponimlər yerli əhalinin mineral sulara qədim dövrlərdən bəri böyük əhəmiyyət verdiyini göstərir. Tədqiqatçıların bir çoxu Sirab kəndinin adının etimologiyasını “Sirli su”, “Baş su”, “Ən yaxşı su” kimi izah edirlər. Sirab kəndinin şimal-şərqində 4 kilometr məsafədə, əsasən, antik və ilk orta əsrlərə aid “Nuvars yaşayış yeri” mövcuddur. Fikrimizcə, bu oykonimin birinci hissəsi “Nuv”, “Nuf”, “Nuh”, ikinci hissəsi isə “As” və ya “Aras” kimi izah edilməlidir. “As” və “Aras” sözləri isə türkdilli xalqlarda su mənasında işlədilir. Ümumilikdə, Nuvars sözü “Nufaras”, “Nuh suyu”, “Həyat verən su” “Peyğəmbər suyu” mənalarında işlədilmişdir. Buradakı mineral çöküntülər yaşayış yerində yüz illərboyu mineral su axdığını təsdiq edir.

Muxtar respublika ərazisində olan mineral bulaqların bəzilərinin müəyyən zaman kəsiyində minerallarının çökməsi nəticəsində çıxış borusu qapanır və mineral su kənar sahələrdəki bulaqlardan çıxmağa başlayır. Sirab kəndindəki Şorsu və Kəlbəağıl su sahələri arasında “Əhəngağıl” adlandırılan yerin yaxınlığında uzun illər mineral suyun axdığını təsdiq edən çöküntülər mövcuddur. Elmi ədəbiyyatda da göstərilir ki, termal mineral sular yer üzərinə təzahür edərkən müxtəlif şəkildə çöküntülər əmələ gətirirlər. Bu çöküntülər dənəvarı, kristallıq, stalaktit, stalaqmit və tozvarı şəkildə olur. Onlar araqonit, travertin, oxra və başqa mineral maddələri əmələ gətirir. Bu çöküntülər miqdarca çoxluq təşkil etdiyindən sənaye əhəmiyyətinə malik olurlar. Məsələn, “Sirab” mineral su yatağında əmələ gələn aroqonitlərdən əla növ mərmər kimi istifadə edilirdi. Lakin mərmər ehtiyatının azlığı səbəbindən istifadə dayandırıldı.

“Sirab” mineral suyu dedikdə Sirab kəndi ərazisində bir-birindən aralı müxtəlif su qaynaqları nəzərdə tutulur. Bunların ən məşhuru isə Şorsu və Kəlbəağıl dərəsində çıxan mineral bulaqlardır. Əvvəllər “Sirab” suyu Kəlbəağılda təbii halda bir yerdən, çox da böyük olmayan debitlə çıxırdı. Həmin sahədə bir metr diametrində təndir kimi çala əmələ gətirmişdi. Bulaq 1 kilometrə yaxın uzunluğu olan çay dərəsinin başlanğıcında yerləşirdi. Həmin sahədə bu gün də kars süxurlarının yuyulması nəticəsində əmələ gələn örtülü arxac (ağıl) vardır. Elə “Kəlbəağıl” toponimi də buradan yaranmışdır. “Kəlbə” ya ad, ya da “Kərbəlayı” sözünün xalq dilində qısaldılmış formasıdır. Görünür, ağıl həmin şəxsə məxsus olmuşdur.

Şorsu dərəsində isə 0,5 kilometrlik məsafədə 10 bulaqdan 4-ü nisbətən çoxdebitli olmuşdur. Bəziləri isə buruq quyuları qazılarkən itmişdir. Burada qazılmış iki buruq quyusunun materialları 1080 metr dərinliyə qədər sahənin geoloji quruluşu və çat tektonikası haqqında tam təsəvvür yaradır. Mütəxəssislər təsdiq edirlər ki, Şorsu sahəsində istər təbii bulaqlar, istərsə də artezian quyularındakı sular “Borjomi” tiplidir. Sirab kəndində 1950-ci illərin əvvəllərində qazılan iki nömrəli buruqdan fontan şəklində çıxan su sonradan sex şəraitində şüşələrə dolduruldu. Beləliklə, 70 il bundan öncə ilk dəfə olaraq “Sirab” mineral suyunun sənaye üsulu ilə istehsalına başlanıldı. Buna qədər təbii qaynaqdan axan suyu insanlar fərdi qaydada butulkalara doldurub satışa çıxarırdılar.

1950-1960-cı illərin yaz-yay mövsümündə mineral suyun yatağına istər kənd əhalisi, istərsə də kənardan gələnlər böyük maraq göstərirdilər. Avtomobili olmayanlar belə, bu suyun sorağı ilə uzaq məsafəni piyada qət edib kəndə gələr, müalicəvi sudan istifadə edər, evlərinə aparardılar.

Mineral sular əhaliyə çox qədim zamanlardan məlum olsa da, muxtar respublikanın mineral suları haqqında elmi ədəbiyyatda məlumat 1930-cu ildən verilir (A.A.Florinin, 1930, Əziz Əsgərov, 1954). İlk vaxtlar bəzi geoloqlar mineral suları qısa şəkildə təsvir etmişlər. İlk dəfə geologiya-mineralogiya elmləri doktoru, professor mərhum Mirəli Qaşqay bir sıra mineral su yataqları, o cümlədən “Sirab” haqqında “Azərbaycanın mineral su yataqları” (1952) monoqrafiyasında geniş məlumat vermişdir.

Görkəmli alim, hidroloq, professor Əziz Əsgərov 1939-cu ildən Naxçıvan Muxtar Respublikasının mineral su bulaqlarının öyrənilməsi ilə ciddi məşğul olmağa başlamışdır. 1950-ci ildən etibarən o, bütün qüvvəsini “Sirab” karbon qazlı mineral su yatağının tam öyrənilməsinə yönəltmişdir. 1952-ci ildə isə Azərbaycan SSR Geologiya İdarəsinin Hidrogeoloji Ekspedisiyası tərəfindən “Sirab” mineral su yatağında tədqiqat, 1959-1966-cı illərdə “Azərbminsugeokaptaj” Respublika Ekspedisiyası Ramazan Əliquliyevin rəhbərliyi və iştirakı ilə kompleks geoloji xəritəalma, kəşfiyyat, hidrogeoloji və təcrübi işlər aparılmışdır. Bu su yatağının öyrənilməsində Sirab və Məmmədrza Dizə kəndinin sakinlərinin də zəhməti az olmamışdır. Onlardan Vəli Paşayev, Qasım Fərzəliyev, buruq ustaları Nəcəfxan Həsənəliyev, Fərəmaz Quliyev, Beytulla İmanov, Abbasəli Bağırovun adlarını çəkmək olar. Sirab hidrogeoloji partiyasının qazma işləri üzrə texniki rəhbəri Seyfulla Orucov və texnik Orucəli Fərzəliyev hazırda yaşayırlar.

Muxtar respublikada ilk dəfə alimlərdən Rza Rzayev “Sirab” mineral suyunu aerozol şəklində yuxarı tənəffüs yollarının xroniki xəstəliklərində müalicə məqsədilə xəstələrə tətbiq etmiş və çox gözəl nəticələrə nail olmuşdur. Sonradan Burun-boğaz-qulaq xəstəlikləri şöbəsində 200 xəstə üzərində müayinə aparılmışdır.

Hələ 1935-1936-cı illərdə Naxçıvan MSSR Səhiyyə Komissarlığının təşəbbüsü ilə “Sirab” mineral suyunun müalicə məqsədilə tətbiqi üçün təşəbbüs irəli sürülmüşdür. Lakin münasib şəraitin olmaması və o zaman bulaqlardakı suyun debitinin azlığı sonradan bu təşəbbüsü icrasız qoymuşdur. 1950-ci ildən Naxçıvan MSSR Səhiyyə Nazirliyi tərəfindən yarımmexanikləşdirilmiş zavod yaradılmaqla, hər gün şüşələrə 2000 litrədək su doldurularaq Azərbaycanın rayonlarına “Naxçıvan suyu” adı ilə göndərilirdi. Naxçıvan Yerli Sənaye İstehsal İdarəsi tərəfindən çayın yatağında tikilmiş, çox da böyük olmayan sudoldurma sexinin ilk təşkilatçısı və icraçısı Qaraş Paşayev olmuşdur. O, “Sirab” mineral su istehsalının əsasını qoyanlardan sayılır. İki saylı quyunun sutka ərzində verdiyi 40 kubmetr su bu normaya kifayət edirdi.

1954-cü ildə baş verən güclü sel zavoda gedən yolu və sexin bir hissəsini sıradan çıxardığı üçün təbiətin bəxş etdiyi bu nemət bir müddət istifadəsiz qaldı. Daha sonra Şorsu dərəsinin girəcəyində təhlükəsiz yerdə taxtadan ikimərtəbəli bina qurularaq burada sexin fəaliyyəti davam etdirildi. İki nömrəli quyu ilə yanaşı, daşdan çıxan təbii bulağın suyundan da istifadə edilirdi və şüşələrə “Sirab” etiketi vurulurdu. Sexə rəhbərliyi yenə də Qaraş Paşayev edirdi.

1959-cu ildə “Sirab” mineral su yatağında böyük hidroloji tədqiqat işləri aparılmağa başlandı. Bir il sonra Şorsu dərəsindəki bulaqların sutkalıq su debitinin azlığına görə sex Kəlbəağıl dərəsinə köçürüldü. Sonra “Sirab” mineral su yatağının istismar ehtiyatı hesablandı, 1967-ci ildə dövlət ehtiyat komissiyası tərəfindən layihə təsdiqləndi və illik istehsal gücü 10 milyon şüşə olan zavod tikilib istifadəyə verildi. 1984-cü ildə bura yeni texnoloji avadanlıq tətbiq olundu və əlavə iki xətt quraşdırılaraq zavodun illik istehsal gücü 4,5 milyon butulkaya çatdırıldı.

1990-cı illərdə ölkədə siyasi və iqtisadi sahələrdə baş verən dağıdıcı proseslər bu zavodun da işini dayandırmasına və demək olar ki, tamamilə dağılmasına səbəb oldu. İstər zavodun köhnə binasında, istərsə də evlərdə antisanitar vəziyyətdə, kustar üsulla su doldurulmağa başlanıldı. Hamının ümumi etiketdən istifadə etməsi ilə istehsal olunan saxta “Sirab” suyu Şahtaxtı, eləcə də Sədərək gömrük-keçid məntəqələrindən satışa göndərilirdi.

Müstəqillik illəri “Sirab” suyuna da, necə deyərlər, “yeni həyat” verdi. Bu dövrdə muxtar respublikada yeni istehsal sahələri yaradıldı, zəngin təbii ehtiyatlar aşkara çıxarılaraq istismara cəlb olundu, sənaye müasir texnika və texnologiya ilə təchiz edildi. 2003-cü ildə “Sirab” Mineral Sular Zavodu Açıq Səhmdar Cəmiyyətinə çevrildi. Sonrakı illərdə dövlət maliyyə dəstəyi hesabına Babək “Sirab” ASC Avropa, Rusiya və Türkiyənin bir sıra firmaları ilə əlaqə yaradaraq yeni müasir avadanlıqlar aldı. Hazırda “Sirab” Mineral Sular Zavodunda 7 texnoloji xətt quraşdırılmış 4 sex fəaliyyət göstərir. Bu xətlərdə qazlaşdırılmış və qazlaşdırılmamış “Sirab” təbii mineral müalicəvi süfrə suyunun müxtəlif həcmli plastik və şüşə butulkalara doldurulması həyata keçirilir. Bu gün 100-dən çox işçinin çalışdığı müəssisədə 21 çeşiddə məhsul istehsal olunur.

Maddələr mübadiləsinin pozğunluğu, qaraciyər, öd, mədə-bağırsaq, tənəffüs yolları, allergik rinit xəstəliklərindən əziyyət çəkən insanlara “Sirab” içmələri məsləhət görülür.

Bu gün süfrələrimizin bəzəyi olan suyun sorağı dünyanın bir sıra ölkələrindən gəlir. Minerallarla zəngin olan “Sirab” daxili tələbatı ödəməklə yanaşı, Rusiya, Belarus, Qazaxıstan, Türkiyə, Türkmənistan, Çin, İran, İraq, Qətər, Polşa, Küveyt, Ukrayna və Baltikyanı ölkələrə ixrac edilir. Bu məqamda mühüm bir faktı qeyd edək ki, ötən il ərzində zavodda istehsal olunan 1 milyon 134 min 954 ədəd müxtəlif ölçüdə qazlı və qazsız, şüşə qazlı, premium şüşə qazlı və qazsız məhsullar xarici ölkələrə göndərilib. Müəssisə cari ildə Ukrayna Respublikasına 20 min 450 ədəd olmaqla, müxtəlif ölçüdə və tərkibdə məhsul ixrac edib. Belə proqnoz edilir ki, “İxrac ili”ndə istehsal artırılaraq 1 milyon 248 min 368 ədəd müxtəlif ölçüdə qazlı və qazsız su muxtar respublikadan xaricə çıxarılacaq.

“Sirab” ASC-də bütün istehsal prosesi İSO standartlarına, keyfiyyəti idarəetmə sisteminin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə Almaniyanın “IQNET”və “DQS” sertifikatlaşdırma təşkilatı tərəfindən İSO 9001-2015 və İSO 22000-2005 standartlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır. Bu isə “Sirab” suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi və Avropa bazarına girişinin açarıdır.

*Bir sözlə, hər damlasında həyat olan “Sirab” suyu bu gün muxtar respublikamızdan və ölkəmizdən kənarda kifayət qədər alıcı kütləsi toplaya bilib. Mineral su artıq Naxçıvanın brend məhsullarından birinə çevrilib. Ötən tarixə nəzər saldıqda görürük ki, “Sirab” mineral süfrə suyu sənaye üsulu ilə istehsal olunduğu vaxtdan ötən 70 il ərzində bu məhsulun yüksək keyfiyyətlə buraxılmasına heç vaxt indiki qədər geniş imkanlar yaradılmayıb. Uca Yaradanın bu torpağa bəxş etdiyi təbii ehtiyatlar, su mənbələri, istehsal olunan yüzlərlə məhsul beynəlxalq sərgilərdə iştirak etməklə, eləcə də reklam xarakterli videoçarxlar vasitəsilə tanıdılır, xarici bazarlara çıxarılır, satışı təşkil olunur. Bütün bunlar həm də Naxçıvanda sahibkarlara olan dövlət qayğısının əyani ifadəsidir.*

**Zaleh NOVRUZOV**

## Respublika elmi-praktik konfransı onlayn şəkildə keçirilib



***Naxçıvan Müəllimlər İnstitutu tərəfindən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Təhsil İnstitutunun iştirakı ilə "Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər – 2020" mövzusunda onlayn respublika elmi-praktik konfransı keçirilib.***

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov institutda fənn kurikulumlarının tətbiqi ilə bağlı görülmüş işlərdən danışaraq bildirib ki, hər il ənənəvi olaraq institutda mövzu ilə əlaqədar olaraq respublika elmi-praktik konfransı keçirilir. Kurikulum islahatlarının tarixinə toxunan rektor qeyd edib ki, institutda muxtar respublikada müəllimlərin ixtisasartırması və təkmilləşdirilməsi, təhsilin bütün pillələri üzrə fəaliyyət göstərən pedaqoji ictimaiyyətin elmi-metodik təminatı ilə bağlı həyata keçirilməsi funksional vəzifələr sırasındadır.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev diqqətə çatdırıb ki, universitetin müasir maddi-texniki imkanları, distant təhsil şəbəkəsi üçün yaradılan infrastruktur bu gün 1000-ə yaxın insanı mövcud proqram vasitəsilə virtual məkana dəvət etmək gücündədir. Rektor qeyd edib ki, rəhbəri olduğu ali təhsil ocağında pedaqoji profilli 16 ixtisas mövcuddur, magistratura səviyyəsində 5 ixtisas üzrə 50-yə yaxın tələbə təhsil alır. Bu ali təhsil ocağında doktorantura səviyyəsində pedaqoji profilli ixtisasların tədqiqat yönümlü işlərə cəlb edilməsi peşənin gələcək perspektivindən xəbər verir.

Sonra Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov müasir dövrdə ümumtəhsil məktəblərində kurikulumun tətbiqi ilə bağlı yaradılan şərait və bunun nəticəsində təhsildə qazanılan uğurlar barədə məlumat verib. Gənc müəllimlərdən ibarət assosiasiyanın yaradılmasından da danışan nazir qeyd edib ki, muxtar respublika təhsil strategiyasının mühüm tərkib hissəsi kimi birliyin yaradılmasında əsas məqsəd azad fikrə, yaradıcı gücə, innovativ biliklərə malik olan fəal gənc müəllimlərin bir araya gəlməsi və innovativ layihələrin tətbiqi və icrasıdır.

Sonra Azərbaycan Respublikasının Təhsil İnstitutunun əməkdaşı, pedaqogika üzrə elmlər doktoru İntiqam Cəbrayılovun "Şagirdlərin təlim nailiyyətlərinin pedaqoji monitorinqi", Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi Tamara Baxşəliyevanın isə "İbtidai siniflərdə fənlərarası inteqrasiyanın təşkili təcrübəsi" mövzularında məruzələri dinlənilib.

Müxtəlif bölmələr üzrə öz işini davam etdirən konfransda 80-dən çox məruzə dinlənilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Azərbaycan milli teatr tarixinə parlaq və şərəfli səhifələr yazmış Naxçıvan teatrının yaradılmasının 137-ci ildönümü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında onlayn tədbir keçirilib.*

## Naxçıvan teatrının yaradılmasının ildönümü qeyd olunub



Əvvəlcə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bu sənət ocağının keçdiyi inkişaf yolundan danışıb.

Vurğulanıb ki, ümummilli liderimizin humanitar siyasətinin uğurlu davamı olaraq muxtar respublikada da teatrlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, teatr müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, Naxçıvan teatrının tədqiqi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilərək monoqrafiya və kitablar nəşr edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" kitabı bu baxımdan yüksək dəyərə malikdir.

Muxtar respublikada teatr sənətinin inkişafında xidmətləri olan insanların əməyinin də dövlətimiz tərəfindən qiymətləndirildiyini bildirən nazir teatrın inkişafına və sənət adamlarına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonra Xalq yazıçısı Elçin Əfəndiyevin "Teleskop" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi olub.

Gənc rejissor Həcərxanım Məmmədovanın quruluş verdiyi tamaşanın rəssamı Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimovadır.

Qeyd edək ki, tədbir Naxçıvan Dövlət Televiziyası ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında canlı yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Ötən ay 106 nəfərə əmək pensiyası təyin edilmişdir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi altında muxtar respublikamızda həyata keçirilən məqsədyönlü tədbirlər bütün sahələrdə dinamik inkişafı təmin etmiş, sosial müdafiə sisteminin daha da gücləndirilməsinə geniş imkanlar açmışdır.*

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən əmək pensiyaçılarının rahatlığının təmin olunması, onların rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlər daim diqqət mərkəzində saxlanılır. Fond aprel ayını uğurla başa vurmuş, üzərinə düşən vəzifə və tapşırıqların yerinə yetirilməsi üçün müvafiq tədbirlər görmüşdür. Əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilmiş, pensiya ödənilməsinə 14 milyon 748 min manat, sosial müavinətlərin ödənilməsinə isə 265 min manat vəsait xərclənmişdir. Müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 9 milyon 725 min manat vəsait daxil olmuşdur.

Ötən ay "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 106 vətəndaşa əmək pensiyası təyin olunmuşdur ki, bunlardan 83-ü yaşa, 2-si əlilliyə, 21-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. "Dövlət sosial sığorta sistemində fərdi-uçot haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq fərdi uçot sistemində işlər davam etdirilmiş, yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 107 ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsi olaraq hər il olduğu kimi, bu il də ölkə başçısı aprelin 24-də "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş, sərəncamda nəzərdə tutulmuş digər şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalamışdır. Hesabat dövründə sərəncamın icrasının təmin edilməsi məqsədilə fondun yerli orqanları tərəfindən birdəfəlik maddi yardımların həmin şəxslərə vaxtında çatdırılması üçün müvafiq işlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Xüsusi qayğıya ehtiyacı olan ailələrlə görüş

15 may – Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və müvafiq rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə Şərur, Kəngərli, Sədərək rayonlarında yaşayan, ümumilikdə, 10 aztəminatlı, çoxuşaqlı, sağlamlıq imkanları məhdud ailələrlə görüş keçirilib.



Görüş zamanı bildirilib ki, dövlətimiz tərəfindən bütün ailələrə, o cümlədən aztəminatlı ailələrə daim diqqət və qayğı göstərilir. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluqlarının təmin olunması muxtar respublikada həyata keçirilən sosial siyasətin aparıcı istiqamətlərindən biridir. Eləcə də əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, çoxuşaqlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində ardıcıl və məqsədyönlü layihələr həyata keçirilir, onlar özünüməşğulluq proqramına cəlb olunurlar. Həmçinin onların həyat və məişət şəraitlərinin yüksəldilməsi üçün aztəminatlı ailənin nümayəndələri ilə vaxtaşırı görüşlər təşkil edilir, onlara dəstək göstərilir.

Qeyd edək ki, həmin ailələrə ərzaq payı, geyim dəsti və tibbi ləvazimat verilib. Ailələrin üzvləri dövlətimiz tərəfindən onlara göstərilən dəstəyi yüksək qiymətləndirib, bu diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Torpaqların elektron kadastr uçotu aparılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanı əsasında muxtar respublikada torpaqların elektron kadastr uçotunun aparılması davam etdirilir. Qarşıya qoyulmuş vəzifələrin icrası ilə əlaqədar Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən Sədərək rayonunda planaalma işləri aparılır.

Artıq rayonun Heydərabad qəsəbəsində və Qaraağac kəndində torpaq sahələrinin konturlarının çöl geodezi-



ya-ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi başa çatdırılıb. Plana alınmış 2 minə yaxın daşınmaz əmlak obyektinin elektron kadastr məlumatları xidmətin informasiya bazasına daxil edilib, yaşayış məntəqələrinin yeni elektron yerquruluşu xəritələri hazırlanıb.

Hazırda planaalma işləri başa çatmış yaşayış məntəqələrinin ərazilərində mülkiyyət növündən və təyinatından asılı olmayaraq, bütün torpaq sahələrinə dair göstəricilər baza məlumatları ilə müqayisə olunur, uyğunsuzluqların aradan qaldırılması istiqamətində işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılmasından 5 il ötür

*Naxçıvan Muxtar Respublikasında təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, son illərdə Naxçıvanda 200-dən çox təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, ən müasir infrastruktur yaradılıb, maddi-texniki baza, pulsuz dərsliklərlə təchiz olunub. Bu gün, demək olar ki, nəinki şəhər və rayon mərkəzlərində, ucqar kəndlərimizdə belə, gələcəyimiz olan şagirdlərimizin təhsil almaları üçün müasir tədris şəraiti yaradılıb.*




Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, hamin sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi təhsilin müasir standartlar səviyyəsində qurulmasına, xüsusən də dəqiq elmlər sahəsində dərin bilik verilməsinə zərurət yaradır. Bununla əlaqədar muxtar respublikamızda dəqiq elmlər sahəsi üzrə kadrların hazırlanması diqqətdə saxlanılmış, təhsilə göstərilən hərtərəfli qayğının daha bir nümunəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmışdır.

2015-ci il sentyabrın 15-də – Bilik Günündə istifadəyə verilmiş, tədris və yataqxana korpuslarından ibarət liseydə fizika və riyaziyyat kimi dəqiq elmlərin, eləcə də digər fənlərin tədrisi üçün hərtərəfli şərait yaradılıb. Təhsil ocağı 380 yerlik tədris korpusu, 5-i elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat, kompüter, müəllimlər otağı, 55 yerlik akt zalı, kitabxana, arxiv və bufetlə təchiz olunmuşdur. Liseydə internetlə bağlantısı olan 45 kompüter quraşdırılmış, kitabxana 4 min 184-ü dərslik, 2 min 65-i bədii ədəbiyyat olmaqla, 6 min 249 kitab və eyni zamanda elektron dərsliklərlə zənginləşdirilmişdir. Şagirdlərə elektron lövhələr vasitəsilə muxtar respublikanın müxtəlif muzeylərindən birbaşa yayımlanan interaktiv dərsləri izləmək imkanı yaradılmışdır.

Təhsil müəssisəsinin 273 yerlik yataqxanasında 5 və 3 yerlik 87 yataq otağı, növbətçi, nəzarətçi və istirahət, həkim və müayinə otaqları, idman zalı, yeməkxana, mətbəx, ərzaq anbarları, bərbərxana, təsərrüfat otağı və camaşırxana vardır. Otaqlar zəruri mebel avadanlıqları ilə təchiz olunmuşdur. Bütün bunlar isə şagirdlərin sağlam böyüməsinə, hərtərəfli inkişafına səbəb olan amillərdir.

Liseydə təhsil alan 237 şagirdin təlim-tərbiyəsi ilə 31 müəllim məşğul olur. 5 ildir, fəaliyyət göstərən liseyi indiyədək 76 məzun bitirmişdir. Onlardan 3-ü qızıl, 1-i gümüş medalla, 14-ü isə fərqlənmə attestatı ilə təhsillərini başa vurmuşdur. Məzunların hamısı respublikanın müxtəlif ali məktəblərinə daxil olaraq tələbə adını qazanmışdır. 28 məzunun göstəricisi isə 500-700 bal intervalında olmuşdur.

Müasir tədris şəraiti yaradılan liseydə muxtar respublikanın ayrı-ayrı rayonlarından olan uşaqlar təhsil alırlar. Onlar dövlət hesabına yataqxana və yüksəkkeyfiyyətli yeməklə təmin edilirlər. Bu təhsil ocağında təhsil iki – ümumi orta və tam orta təhsil pillələrində aparılır. Həmçinin şagirdlər burada fizika və riyaziyyat fənləri üzrə yüksək səviyyədə hazırlıqla təmin edilirlər.

Liseydə təhsil almaq üçün müraciət edən şagirdlərin sayı ilbəil artmaqdadır. Təhsil müəssisəsinə qəbul növbəti tədris ilində ümumtəhsil məktəblərinin VII sinfində təhsil alacaq oğlan şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Qeyd edək ki, hazırda liseyə 2020-2021-ci tədris ili üzrə şagird qəbuluna başlanılıb. Mayın 6-da start verilmiş sənəd qəbulu mayın 29-dək davam edəcəkdir.

İyun ayının 10-da test formatında keçiriləcək imtahanda muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır. Ümid edirik ki, yeni tədris ili üçün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə müasir standartlarla təchiz olunmuş şəraitdə təhsil almaq istəyən şagirdlər müsabiqədə fəal iştirak edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Bütün dünya hadisələrinə rəğmən öz yolu ilə ahəstəcə addımlayan füsunkar baharın ətrafdakı gözəllikləri əhatəsində bu günlər bir musiqi adamı ayaq saxlamağa, onu dinləməyə vadar edir… Bu musiqi, sanki barmaqların notların üzərində hərəkətilə birdən zilə qalxıb, birdənsə bəmə enməklə təbiətin ucsuz-bucaqsızlığında uzaqlaşır, yaxınlaşır. Ətrafdakı çiçəklərin bir-birinə qarışan rayihəsi bu musiqinin ifaçılarından "söhbət açır". Çünki o ifaçıların həyatı bu rayihənin onları çiçəyə çağırışı ilə başlar, kiçicik, sadə daxmalarında bitər. Musiqi nə qədər gözəl olsa da, lakin ilk ağıla gələn həmişə eşitdiyimiz bu söz olur: arı vızıltısı… Yox, əsla vızıltı deyil bu. Kim arıların səsini belə adlandırmış görəsən? Bu sözün ilk səslənməsi belə, adama xoş gəlmir, haradasa insanı narahat edən, başağrısı gətirən bir səs təsirini bağışlayır. Nə qədər yanlış imiş, bununla əsla razılaşmaq olmaz. Axı bu səs vızıltı deyil, gözəl bir musiqi əsəridir – balladadır. Adama bal kimi şipşirin gələn balladanın xorla oxunan nəğmə, musiqi ilə müşayiət olunub, dramatik oyunlar və rəqslərlə başa çatan bir xalq poeziyası nümunəsi olduğuna nəzər saldıqda bu janrın, bəlkə, elə arılara istinadən yaradılması adamı çox düşündürür. Bəli, arıların balladası, bal balladası. Ağacların, güllərin, çiçəklərin bu möhtəşəm simfonik orkestrin üzvləri, təbiətin özünün isə dirijoru olduğu, şövqlə ifa olunan böyük bir musiqi bəstəsidir. Arıların zəhmət nəğməsidir.***

# Arıların balladası...



Bahar gəlişi ilə qışboyu "evlərindən" bayıra çıxmayan arıları yeni həyata, təbiətin qoynuna səsləyib. Dünyanın ən kiçik, lakin ən zəhmətkeş, kiçicik can-cüssələri ilə "evlərində" yaratdıqları qayda-qanuna, gördükləri işin keyfiyyətinə, ortalığa çıxardıqları zəhmət bəhrəsinə görə bütün canlılardan üstün olan arılar isə bu çağırışla yeni iş mövsümünə başlayıblar. Budur, minlərlə



arı güllü-çiçəkli çəmənlərdə, bağçalarda iş başındadır. Diqqətim bu kiçik canlılardan birinin səhərdən bəri çiçəyin üzərindəki mücadiləsində ilişib qalıb. Bu kiçik varlığın simasında milyonlarla arını Yer kürəsinə bəxş edən Ulu Yaradanın onlara əmrini xatırlayıram: "Dağlarda, ağaclarda və insanların qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal)… Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat, asanlıqla get!.. O arıların qarınlarından insanlar üçün şəfa olan müxtəlifrəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunu da düşünüb dərk edənlər üçün bir ibrət vardır!" Və bir də həmin arının simasında Yaradanın bu kiçicik canlara sığdıra bildiklərini, onların fizioloji cəhətdən özlərindən dəfələrlə böyük varlıqlara faydalarını düşünürəm. Düşünürəm ki, Ulu Yaradanın şüur bəxş etdiyi biz insanların bəzən 4-6 nəfərdən ibarət ailələrimizdə yarada bilmədiyimiz düzəni böyük ailələr şəklində yaşayan, bir-birlərini yalnız qoxuları ilə tanıyan, hər birinin öz işi, əməyi olan, günləri saniyəbəsaniyə zəhmətə hesablanan arılar necə də gözəl şəkildə qura bilirlər. Bu bir arının timsalında milyonlarla arının yaranışını, yaşamını göz önünə gətirirəm: onların yumurtadan çıxmalarını, bu yumurta qabıqlarını yenicə çırtıb həyata boylanan kiçicik vücudlarını, qısa bir zamanda özlərindən böyüklərdən aldıqları "təlim və təhsillə", sanki illərin zəhmətkeşi olduqlarını düşünürəm. Budur, çiçəkdən-çiçəyə o incə qanadlarını ahəstəcə titrətməklə uçuşurlar. Kiçicik canları ilə saniyədə 250 dövrə vurur, bir saatda 15 kilometr sürətlə uça bilirlər. Çiçəklərin şirəsini topladıqca vücudları ağırlaşır, lakin bu onların uçuş cəldliyinə mane ola bilmir. Bu bapbalaca varlıqların çiçəklərdən şirəni sormaq üçün dili, əşyalara toxunub qoxusunu duymaq üçün bığcıqları, özlərini qorumaq üçün neştərləri var. Həmin neştərlər insana toxunanda necə acı verirsə, (Ulu Yaradanın hikməti ilə bu acıda da dərdlərə dərman, çarə var ) bu bədəndən axan baldan dadanda bir o qədər şirinlik duyulur.

Çiçəyin üzərindəki mücadiləsini tamamlayıb uçmağa başlayan bu arının gedəcəyi ünvanı düşünürəm. Həyatları pətəkdən çiçəyə, çiçəkdən pətəyə qədər olan məsafəyə hesablanan arı hara gedə bilər ki? Təbii ki, pətəyə – mənzilinə. Budur pətək… Kənardan sadə, çox kiçik bir qutu kimi görünən bu mənzildə ən müasir texnoloji avadanlıqlarla işləyən böyük fabrik və zavodların gündəlik istehsal gücündən dəfələrlə artıq bir iş prosesi var. Bu proses təbii yolla, sadəcə, böyük zəhmətlə gerçəkləşir. Burada heç bir xammal kənardan alınmır. Nə mum, nə süd, nə şəkər, nə də su… Budur, bayaqkı ballada indi pətəyin ətrafında səslənir. Arılar bədənlərindən mum ifraz edib şan hazırlayanların əməyini tamamlamaq üçün pətəyə can atırlar. O şanlarda insanların etdiyindən fərqli şəkildə, metrsiz, xətkeşsiz, öl-



çüsüz, lakin çox böyük dəqiqliklə hazırlanan hücrələri öz nektarları ilə doldurmağa, çölün-çəmənin min bir dadda, ətirdə olan çiçəklərindən topladıqlarını insan üçün nemətə çevirmək naminə ilahi bir əmrlə uçuşurlar. Pətəkdə qızğın, bir o qədər də sirli iş prosesi var. Balı muma çevirənlər, mumdan şan düzəldənlər, şanı üfüqi, şaquli hissələrə bölənlər, hücrələr toxuyanlar… Erkək arılar, sürfə qoyub yeni minlərlə arının dünyaya gəlməsini gözləyən ana arılar, dünyaya gələn "bacıqardaşlarını" südlə qidalandıran bəsləyici arılar, təmizlik işləri görən arılar, işə tələsən işçi arılar, pətəyin keşiyini çəkən arılar...

Bəli, 2016-cı ildən başlayaraq muxtar respublikamızda hər il keçirilən "Arıçılıq məhsulları – bal festivalı"nda gördüyümüz çeşid-çeşid bal, bal məhsulları, sən demə, bax belə, minlərlə arının dəyişilməz süjet xətti üzərindəki həyat tərzindən, zəhmətindən, bir də ki, yorulmadan səsləndirdikləri əmək balladasından hasil olurmuş. Dadarkən çiçək ətri duyulan, nərgizi, bənövşəni, ərik, şaftalı, alma çiçəklərini burnuna yaxınlaşdırırmışsan kimi hiss olunan, elə bütün bunlara görə də ölkə bazarlarında əl-əl axtarılan Naxçıvan balı... Arıların balladasında da, çiçəyə, ətrə, şirəyə yönələn uçuşlarında da bu gözəl diyarımızdan aldıqları ilham, bu cənnətməkanın onlara verdiyi güc, ruh duyulur. Kiçik, lakin böyük hissiyyata malik bu varlıqlar təmiz, oksigenlə bol, günəşli havanı hiss etmədən pətəkdən bayıra çıxarlarmı? Çiçəklərin ətri, güllərin rayihəsini almadan uçuşarlarmı? Bunlar olmasa, heç arılar var ola bilməz. Onların diyarımızı özlərinə məskən seçməsinin də, elə arıçılığın bu yerlərdə daha geniş kənd təsərrüfatı sahəsi kimi formalaşmasının və ildən-ilə inkişaf etməsinin də səbəbi muxtar respublikamıza Yaradanın bəxş etdiyi bu füsunkar təbiət, əlverişli təbii-iqlim şəraiti, zəngin yem ehtiyatları bazasıdırsa, digər səbəb isə bu bəxşişi dəyərləndirənlərdir. Arıçılığın inkişafı ilə bağlı imzalanan dövlət sənədlərinin, sonuncu – 2017-2022-ci illəri əhatə edən dövlət proqramının hədəfi ənənəvi arı cinslərinin yetişdirilməsi, arı ailələrindən yüksək məhsul götürülməsi, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, arıçılıq məhsullarının ixracının stimullaşdırılması, muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi idi ki, bunlar artıq reallaşıbdır. Bu sahə üzrə müxtəlif tədbirlərin, o cümlədən beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfransların keçirilməsi, arıçılara yaradılan münbit şərait – sahibkarların pulsuz dərman preparatları ilə təmin edilməsi, arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə kreditlərin verilməsi, arı yeşiyi, çərçivə (pətək) istehsalı sahəsinin yaradılması, arıçılıq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək, arıçıların rastlaşdıqları problemlərin vaxtında həllinə nail olmaq məqsədilə "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin yaradılması son illər bu sahənin inkişafına, cari ilin əvvəlinə olan mə-



lumata görə, arı ailələrinin sayının 99 min 798-ə, bu sahə ilə məşğul ailə təsərrüfatlarının sayının isə 4884-ə yüksəlməsinə səbəb olmuşdur ki, bu rəqəmlər 20-25 il bundan əvvəlki dövrlə müqayisə olunmayacaq səviyyədədir. Hər il keçirilən festivalda Ali Məclis Sədrinin iştirakı, arıçılarla görüşməsi, onların qayğıları ilə maraqlanması arıçılıq məhsullarının istehsalının artmasına və istehsal olunan məhsulların satışına müsbət təsir göstərmişdir. Muxtar respublikamızda "İxrac ili" olan 2020-ci ilin arıçılar üçün uğurlu il olacağı da sözsüzdür.

Çiçək, rayihə, musiqi, sevgi... Deyirlər ki, bal min bir dərdin dərmanıdır. Nə üçün? Nəzər salaq. Əgər dünyada tibbin üzünü ağ edən təbiətin min bir adlı bitkisindən, çiçəyindən hazırlanan dərmanlardırsa, koma vəziyyətinə düşən, ölümlə mücadilə edən insanı bəzi tanış qoxular yenidən həyata qaytarırsa, xəstəliklər var ki, musiqi ilə çox effektiv müalicə olunursa və nəhayət, dünyanı sevgi xilas edirsə, bu dörd ünsürdən yaranan bal niyə də dərdlərin dərmanı olmasın ki?..

*Və son olaraq Albert Eynşteyn deyirdi ki, "Əgər arılar yer üzündən yox olarsa, insanın, sadəcə, dörd il ömrü qalar. Arı olmazsa, tozlanma, bitki, heyvan və insan olmaz". Bu bahar, həm də dünyamızı pandemiyanın ağuşuna aldığı bu bahar milyonlarla arının səsləndirdiyi ballada "deyir ki" həyat öz gözəllikləri ilə davam edir…edəcək…*

**✍ Mətanət MƏMMƏDOVA**

*Dünən Cek Londonun "Həyat eşqi" kitabının onlayn müzakirəsi keçirilib. Müzakirə zamanı Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə elmlər doktoru, dosent Sevinc Abbasova çıxış edərək gənclərə mütaliənin faydaları haqqında məlumat verib, mədəni səviyyənin yüksəldilməsinin mütaliədən keçdiyini bildirib.*

## Onlayn kitab müzakirəsi olub



Cek Londonun həyatı və həyat uğrunda apardığı mübarizə barədə gənclərə ətraflı məlumat verən Sevinc Abbasova "Həyat eşqi" kitabından bəhs edərək bildirmişdir ki, əsərdə sağ qalmaq uğrunda mübarizə mükəmməl təsvir olunub. Həyatın, əslində, çox dəyərli olduğu göstərilib. Cek London bu hekayə ilə nəyin bahasına olursa-olsun, insanı yaşamağa səsləyir, ona həyat sevinci bəxş edir. Hekayədə səfərə çıxan iki yoldaşdan biri o birinin dumanda itdiyini zənn edir. Ancaq əslində o, heç də itməmiş, öz yoldaşını atıb getmişdi. Təkbaşına qalan yoldaşı isə böyük mücadilə ilə sağ qalmağa çalışır, sözün əsl mənasında, həyatla savaşa çıxır. Bəlkə də, yoldaşı onu atmasa və təkbaşına qalmasa idi, məhv olmazdı.

Müzakirə əsnasında gənclər də öz fikirlərini bildirmiş və onları maraqlandıran suallar cavablandırılmışdır. 15 gəncin iştirak etdiyi onlayn müzakirə Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Şahmat turniri başa çatıb

*Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən "Evdə qal, şahmat oyna" devizi altında internet üzərindən təşkil olunan canlı yarışlar davam etməkdədir.*

Ötən gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 97 illiyinə həsr edilən Azərbaycan və Türkiyə şahmatçıları arasında internet üzərindən dostluq görüşünə yekun vurulub. Blitz turnirdə naxçıvanlı zəka sahibləri ilə yanaşı, Mersinin "Modern", Antalyanın "Çallı Spor", "Konyaaltı Olbia", Bakının "Zirə Eko-Park", "Grand Master", İstanbulun "Galaksi", Hatayın "Şah" şahmat klublarının, Ankaranın DSİ Gənclik və İdman dərnəyinin şahmatçıları qüvvələrini sınayıblar. Ümumilikdə, turnirdə 201 şahmatçı mübarizə aparıb.




Gərgin keçən görüşlərdə qalib adını Türkiyə təmsilçisi Melis Anaberdiyeva (Mersinin "Modern" şahmat klubu) qazanıb. O, müəyyən edilmiş qaydalara əsasən 81 faizlə bu ada layiq görülüb. Naxçıvan şahmat məktəbinin yetirməsi, FİDE ustası Pərviz Qasımov rəqibdən bir faiz geridə qalıb və ikinci olub. Qrossmeysterimiz Urfan Sevdimalıyev isə 78 faizlə üçüncü yerlə kifayətlənib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97 illiyinə həsr edilmiş onlayn "Azərbaycan Türkiyə Dostluq Görüşü" turnirində fəal iştirak edən hər bir kluba Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən "Təşəkkürnamə" hazırlanıb və yaxın zamanda təqdim ediləcəkdir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Hərbi beşnövçülük üzrə yarışlar keçirilib



Naxçıvan Qarnizonunda hərbi qulluqçuların fiziki və psixoloji dözümlülüyünün yoxlanılması, güclü komandaların tərkibinin müəyyən edilməsi məqsədilə keçirilən birincilikdə 15 komandadan 90 idmançı mübarizə aparıb. Yarışlarda Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları fərqləniblər.

İdmançı hərbi qulluqçular maneələr zolağının dəf edilməsi, 200 metr məsafəyə avtomatdan atəşaçma, uzağa dəqiqliklə qumbaraatma, 8 kilometr məsafəyə kross qaçışı və üzgüçülük növləri üzrə yarışlarda güclərini sınayıblar. Ümumi nəticələrə əsasən komanda hesabında 2-ci yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları, 3-cü yerdə isə motoatıcılar qərarlaşıb. Xüsusi təyinatlılar isə birincilik mövqeyini yarışın sonuna qədər qoruyub saxlayıblar.

İlk üçlükdə qərarlaşan komanda və hərbi qulluqçulara Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Nəriman NƏCƏFOV**

***Bildiriş***

"Cahan Əmlak" MMC-nin adı dəyişdirilərək "Cahan Satınalma" MMC-yə çevrilmişdir.

***İtmişdir***

Abbasov Ramin Vəkil oğlunun adına olan 0800026492 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Rüstəmov Asəf Qənbər oğlunun adına olan JN-271A inventar nömrəli, 10204018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Novruzov Qədim Hüseyn oğlunun adına olan traktorun 85017 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Camaləddin Ələsgər oğlunun adına olan 0300091872 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Bəndəliyev Zülfəli İsrafil oğlunun adına olan 0201093112 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Orucov Altay Dilsus oğlunun adına olan 0900068162 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 350